**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RƏŞAD YAŞAR oğlu ŞİRƏLİYEV**

# SƏFƏVİ DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ SOVET TARİXŞÜNASLIĞINDA

**İxtisas: 5507.01 - Beynəlxalq münasibətlər tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2017**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı,
AMEA-nın müxbir üzvü **Y.M.Mahmudov**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru **Z.H.Bayramov**
Tarix üzrə fəlsəfə doktoru, dosent **E.K.Süleymanova**

**Aparıcı təşkilat: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix"kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 -"Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________2017-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi tarix üzrə fəlsəfə**
**doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Xalqımızın dövlətçilik tarixinin ən şanlı səhifələrindən birini təşkil edən Səfəvi dövləti təkcə Azərbaycanın deyil, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda bütün Yaxın və orta Şərqin dövlətçilik tarixində, beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa-Şərq qarşılıqlı əlaqələrində də çox fəal rol oynadı. “Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Səfəvi hökmdarları I Şah İsmayıl, I Şah Təhmasib və I Şah Abbasın həyata keçirdiyi uğurlu islahatlar, daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi”.[1]

Orta əsrlərdə xalqımızın dövlətçilik tarixində Səfəvilər imperiyası I Şah İsmayılın rəhbərliyi altında ən yüksək mərhələ kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri zəncirində yalnız bir halqa olmuşdur. Bu siyasi qurumlar bir-birini əvəz etməklə və çoxəsrlik Azərbaycan dövlətçiliyinin əsasını formalaşdırmaqla Azərbaycan türk tayfalarını birləşdirmiş, dövlət quruculuğu ənənələrini, idarəçilik vərdişlərini, qonşu xalqlar haqqında bilikləri və informasiyanı, onlarla ünsiyyət mexanizmlərini, hakimiyyətin çox vaxt atadan oğula verilməsi təcrübəsini növbəti nəsillərə ötürmüşlər.[2]

I Şah İsmayılın Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də öz dövrü üçün xarici siyasət mexanizmlərini formalaşdırmasıdır. Qüdrətli imperiya yaradan I Şah İsmayıl həm də Qərbi Avropada Papalıq, Fransa, İspaniya, Venesiya, Genuya və s. ilə səmərəli qarşılıqlı münasibətlərin möhkəm bünövrəsini qurmuşdu.[3]

Yaxın və Orta Şərqdə mühüm hərbi-siyasi və mədəni təsir gücünə, region ölkələri və Qərbi Avropa dövlətləri ilə sıx qarşılıqlı münasibətlərə malik olan Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsinin öyrənilməsi və təhlil edilməsi mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Səfəvi dövlətinin xarici siyasətinə dair sovet tarixşünaslığında əksini tapmış fikir və mülahizələri vahid tədqiqat işində toplamağa, onları müqayisəli təhlil etməyə cəhd göstərmişik. Zənnimizcə, hazırkı tədqiqat işi bu sahədə ilk təşəbbüs olaraq tarixşünaslığımızın zənginləşməsinə xidmət edəcəkdir.

Tədqiq olunan mövzunun aktuallığı həm də onunla əlaqədardır ki, Şərq-Qərb tranzit ticarət yollarının Azərbaycan Səfəvi dövlətinin ərazisindən

---

[1] Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005.
[2] Mehdiyev R. “Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi” //Azərbaycan qəzeti 05 dekabr 2012-ci il.
[3] Yenə orada.

keçməsi onun xarici iqtisadi və siyasi əlaqələrinə öz müsbət təsirini göstərirdi.[1]

Tədqiqatın qarşısına qoyulan problemin aktuallığını şərtləndirən digər mühüm cəhətlərdən biri də müasir dövrdə Qərbi Avropaya inteqrasiya yolunu tutmuş Azərbaycan Respublikasının Qərb dövlətləri ilə qarşılıqlı əlaqələrinin qədim tarixi köklərinin sovet tarixşünaslığında araşdırılmasıdır. Bu problem mühüm elmi maraq doğurmaqla yanaşı, həm də siyasi baxımdan əhəmiyyətli və zəruridir. Belə ki, Azərbaycan Səfəvi dövlətinin Qərb dövlətləri ilə qarşılıqlı münasibətlərini öyrənmədən Avropa-Asiya diplomatik və iqtisadi əlaqələr tarixini tam əhatə etmək qeyri-mümkündür.

Azərbaycan Səfəvi dövlətinin xarici siyasət məsələləri Azərbaycan milli tarix elmində öz aktuallığını qoruyub saxlamışdır. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra bu problemin araşdırılması sahəsində xeyli iş görülmüşdür.

Akademik R.Ə.Mehdiyevin "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti"(rus dilində) kitabı[2] Azərbaycan tarix elmində Səfəvi dövlətinin banisi I Şah İsmayıl mövzusu ətrafında illər boyu hökm sürmüş ciddi, mübahisəli problemlərin həllinə yardım göstərir. Bu əsər Vətən tarix elmində yetkin, siyasi cəhətdən kamil bir baxışın formalaşdırılması istiqamətində müstəsna nailiyyət kimi diqqətə layiqdir.

Sovet tarix elmində Səfəvi dövlətinin (1501-1736) tarixi əsasən Azərbaycan milli tarixinin ayrılmaz tərkib hissəsi kimi tədqiq edilmişdir. Azərbaycan Səfəvi dövlətinin tarixinin araşdırılmasına olan maraq yalnız Azərbaycan tarixinin tədqiqi zərurəti ilə bağlı deyildir. Bu maraq həmin dövlətin Yaxın və Orta Şərqin siyasi tarixində mühüm yer tutması, bölgədə yaşayan bir çox xalqların ictimai-iqtisadi, siyasi, mədəni həyatında silinməz izlər qoyması ilə də əlaqədardır. SSRİ-nin təqribən 70 illik mövcudluğu dövründə milli tariximizin Səfəvilər sülaləsi dövrünün tədqiqi ilə bağlı xeyli işlər görülmüş, problemin müxtəlif cəhətləri, o cümlədən xarici siyasət məsələləri sovet tədqiqatçıları tərəfindən araşdırılmışdır.

Lakin bu dövrün tarix elmi tarixi hadisə və proseslərə XX əsrin sovet ictimai elmlərinə xas olan sinfi yanaşma tərzi ilə seçilmişdir. Bu yanaşma tərzi isə tarixi tədqiqatların istiqamətlərinə, əldə olunan nəticələrə öz təsirini göstərmişdir. SSRİ yaradıldıqdan (1922) sonra marksizm-leninizm onun ərazisində ictimai elmlərin inkişafının "ideya-nəzəri əsası" elan edilmişdi[3].

---

[1] Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006.

[2] Мехтиев Р.А. Шах Исмаил Сефеви: портрет правителя и воина. Часть I. Баку: Şərq-Qərb, 2014.

[3] См: Историческая наука в 20-30-е годы («Круглый стол» Научного Совета по историографии и источниковедению) / История и историки. Отв. ред. И. Д. Ковальченко. Москва: Наука, 1990, с.64-105.

Ölkədə bütün ictimai elm sahələri marksist-leninçi təfəkkür tərzinin təsiri altına düşmüşdü. İmperiya ərazisində yaşayan bütün xalqların tarixi "vahid nəzəri – metodoloji əsaslarla", yəni "marksist-leninçi dünyagörüşünün tələblərinə uyğun şəkildə" öyrənilməli idi. Sovet rəhbərliyi "yeni" siyasi rejimi mədh edən "yeni ideoloji istiqaməti" formalaşdırmağa xüsusi diqqət yetirirdi.[1] Tarix elmi "partiyalı elm" kimi sovet dövlət sisteminin təbliğatına və təşviqatına xidmət göstərməyə başladı.[2]

Şübhəsiz ki, bu tələb Səfəvi dövlətinin xarici siyasətinin tədqiqinə də öz təsirini göstərirdi. Səfəvi dövlətinin xarici siyasətinin araşdırılması gedişində onun daha çox Rusiya ilə qarşılıqlı əlaqələrinin öyrənilməsinə üstünlük verirdilər.

İlk sovet tədqiqatçılarının əsərlərində yeni rejimin ideoloji təsiri özünü daha güclü surətdə göstərirdi. XX əsrin 50-60-cı illərində Azərbaycan Səfəvi dövlətinin xarici siyasətində başlıca diqqət onun Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələrinin tədqiqinə yönəldilmişdi. XX əsrin 80-ci illərinin ortalarından başlayaraq sovet tarix elmində ideoloji təsirlər tam şəkildə aradan qalxmasa da, tarixi məsələlər nisbətən obyektiv şəkildə öyrənilməyə başlandı. Bu dövrdə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin tədqiqinə aid olan əsərlərin sayı xeyli artdı.

Azərbaycan xalqı siyasi müstəqilliyini bərpa etdikdən (1991) sonra Azərbaycan Səfəvi dövlətinin tarixinə, xüsusilə onun xarici siyasət problemlərinə maraq daha da artdı. Onu da nəzərə almaq lazımdır ki, son illərdə siyasi müstəqilliyini daha da möhkəmləndirmiş olan Azərbaycan Respublikasının milli tarix elmi qarşısında yeni tələblər meydana çıxmışdır. Həmin tələblər hər şeydən öncə sovet tarix elminin nəticələrinə münasibətlə bağlıdır. Bu problemin aktuallığı məhz həmin tələblərə cavab vermək zərurəti ilə şərtlənir. Sovet tarix elmində Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin araşdırılması ilə bağlı olan əski ideoloji tələblərdən törəmiş nöqsanlar vardır. Eyni məsələlərə münasibətdə ayrı-ayrı sovet müəlliflərinin fikirləri arasında fərqlər mövcuddur. Buna görə də, Azərbaycan Səfəvi dövlətinin xarici siyasət problemlərinin sovet tarix elmində araşdırılması səviyyəsinin öyrənilməsinə kəskin ehtiyac vardır və bu ehtiyac mövzunun aktuallığını şərtləndirir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Təqdim olunan tədqiqatın xronoloji

---

[1] Искендерова М.Азербайджано-русские отношения XVIII - начала XIX вв. в азербайджанской и русской историографии (20-80-е годы XX века). Баку: Элм, 2009.

[2] Алексеева Г.Д. Октябрьская революция и историческая наука / Историческая наука России в XX веке. Москва: Скрипторий, 1997, с. 13-52.

çərçivəsinə gəldikdə, biz bu məsələdə Azərbaycan Səfəvi dövlətinin yaranması, genişlənərək Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrilməsi, onun qonşu dövlətlərlə yanaşı, Qərb ölkələri ilə qarşılıqlı əlaqələrinin səbəbləri, gedişi və nəticələrini şərtləndirən bir sıra daxili və xarici siyasi amillər kompleksini nəzərə almışıq. XVI-XVIII əsrin I yarısında fəaliyyət göstərən Səfəvi dövlətinin xarici siyasəti, Yaxın və Orta Şərqdə baş verən siyasi proseslərə güclü təsiri dissertasiyanın xronoloji çərçivəsini əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqinə XX əsrin 40-cı illərində başlanılmışdır. İ.P.Petruşevskinin Səfəvilər dövlətinin tarixinə dair araşdırmalarında onun Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri ilə bağlı məsələlərə yeri gəldikcə toxunulmuşdur.[1]

Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, xüsusilə onun Qərbi Avropa dövlətləri ilə diplomatik əlaqələri ilk dəfə Ə.M.Şahmalıyevin məqalələrində[2] xüsusi tədqiqat obyekti kimi araşdırılmışdır.

Ə.N.Quliyevin əsərində Səfəvi dövlətinin Rusiya ilə qarşılıqlı əlaqələri öz əksini tapmışdır.[3]

O.Ə.Əfəndiyevin əsərlərində[4] Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinə xüsusi diqqət yetirilmişdir. O, əsərlərində XVI əsrdə Səfəvi-Osmanlı münasibətlərini araşdırmış və yeri gəldikcə Azərbaycan Səfəvi dövlətinin

---

[1] Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. /Сборник статей по истории Азербайджана. Вып.1. Баку: Изд-во АН Аз.ССР, 1949, с. 225-298.

[2] Шахмалиев Э.М. К вопросу о дипломатических оношениях первых Сефевидов с западными странами //Труды Азербайджанского Государственного Университета. Вып. 1. Серия историческая, Баку, 1950, с. 51-68; Yenə onun: Дипломатические отношения Испании с Сефевидским государствов во второй половине XVI века, //Ученные записки Азербайджанского Государственного Университета им. С.М.Кирова. Ваку: 1955, с.117-127; Дипломатическая миссия Винченцо Алессандри, посла Венеции, к шаху Тахмасибу I // «Ученые записки» Азербайджанского Государственного Университета, серия истории и филоссофии. Баку, 1969, №7; Донесение папского посла Векьетти о Сефевидском государстве //S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti Elmi Əsərlər, tarix və fəlsəfə seriyası. Bakı: 1977, №4, s. 32-37.

[3] Quliyev Ə. N. Azərbaycan – Rusiya münasibətləri tarixindən. Bakı: Qızıl Şərq, 1958.

[4] Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд. АН Азерб. ССР, 1961; Yenə onun: Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981; Azərbaycan Səfəvi dövləti. Bakı: Şərq-Qərb, 2007; Efendiyev O. Sultan II Bayazid ve Şah İsmayıl //XIII Türk Tarih Kongresi. Kongreye sunulan Bildiriler. Ankara, Türk Tarih Kurumu Basımevi, 1999, s. 89-95; Yenə onun: Karakoyunlu, Akkoyunlu ve Safevi devletlerindeki mülki ve askeri teşkilata bakış //Yeni Türkiye, Ankara: 2002, yıl 8, sayı 45, s. 72-80; Минадои и его «История войн между турками и персами» //«Известия» Академии наук Азербайджанской ССР. Серия история, философия и права, 1967: №1, с. 59-66; Из истории дипломатических отношений Венеции с Азербайджаном (Миссия М.Мамбре в 1539-1542 гг.) //Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi konfransı (Materiallar). Bakı: 1995, s. 82-83.

Şeybanilər dövləti, Məmlük dövləti, Böyük Moğol imperiyası, Böyük Moskva knyazlığı və Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinə də toxunmuşdur.

Ə.Ə.Rəhmaninin XVI əsrin sonu-XVII əsrdə Azərbaycanın ictimai-iqtisadi, siyasi tarixinə həsr olunmuş monoqrafiyasında Səfəvi-Osmanlı münasibətləri ilə bağlı mühüm məlumatlar öz əksini tapmışdır.[1]

Ş.Fərzəliyevin təaqiqatlarında Azərbaycan Səfəvi dövlətinin Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri dövrün ilk mənbələri əsasında tədqiq edilmişdir.[2] O, dövrün epistolyar qaynaqlarından geniş istifadə edərək XVI əsrdə Səfəvi-Osmanlı qarşılıqlı əlaqələrini dərindən işıqlandıra bilmişdir.

Səfəvi dövlətinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinə dair sanballı tədqiqat əsərlərinin müəllifi Y.M.Mahmudov araşdırdığı problemlə əlaqədar bir çox yeni mənbələri – Səfəvi hökmdarlarının xarici ölkə hökmdarları ilə yazışmalarını, mühüm siyasi tapşırıqlarla Səfəvilər dövlətinə yollanan diplomatlara verilmiş məxfi təlimatları və s. qiymətli sənədləri ilk dəfə elmi dövriyyəyə cəlb edərək Azərbaycan Səfəvi dövlətinin beynəlxalq əlaqələrini hərtərəfli tədqiq etmişdir.[3]

Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti ilə bağlı bəzi məsələlərə F.M.Əliyevin[4], B.A.Əhmədovun,[5] S.Məmmədovun[6] əsərlərində də toxunulmuşdur. S.B.Aşurbəylinin əsərində Səfəvilər dövründə Azərbaycan-Hindistan

---

[1] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981.

[2] Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri əsasında). Bakı: Elm, 1983; Yenə onun: Azərbaycan və Osmanlı imperiyası. Bakı: Kür, 1999.

[3] Махмудов Я.М. Новый сборник документов по истории Сефевидского государства («Шах Исмаил I в «Дневниках» Марино Санудо») //Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права. 1986, № 1; Yenə onun: К вопросу о взаимоотношениях государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV-начало XVII века) - статья первая //«Известия» Академии наук Азербайджанской ССР, серии истории, философии и права. Баку: 1987, № 3, с. 32-43; Yenə onun: К вопросу о взаимоотношениях государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV -начало XVII века)- статья вторая // «Известия» Академии наук Азербайджанской ССР, серии истории, философии и права. Баку: 1987, № 4, с. 128-133; Yenə onun: Взаимоотношения государств Ак-коюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Издатеьство Бакинского Университета, 1991; Yenə onun: Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 1996; Yenə onun: Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, Təhsil, 2012.

[4] Алиев Ф.М. Антииранcские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1975; Yenə onun: Миссия посланника русского государства А.П.Волынского в Азербайджане (1716-1718 гг.). Баку: Элм, 1979; Yenə onun: Азербайджано-русские отношения (XV-XIX вв.). Часть 1. Баку: Элм,1985.

[5] Ахмедов Б. А. Третья экспедиция англичан в государство Сефевидов (1565-1567 гг.) //Ученые записки Азербайджанского Государственного Университета. Серия истории и философии, 1966, № 8, с. 90-97.

[6] Məmmədov S.A. Azərbaycan tarixi XV – XVIII əsrin I yarısında. Bakı: APİ nəşri, 1982; Yenə onun: Мамедов С.А. Азербайджан по источникам XV-первой половины XVIII вв. Баку: Элм, 1993.

iqtisadi və mədəni əlqələri işıqlandırılmışdır.[1] Ş.K.Məmmədovanın monoqrafiyasında XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin Osmanlı imperiyası ilə münasibətlərinə xüsusi yer verilmişdir.[2] X.A.Qambayzadənin tədqiqatında XVI əsrin sonu-XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri araşdırılmışdır.[3]

Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti ilə bağlı məsələlər ümumiləşdirici əsərlərdə, o cümlədən üçcildlik "Azərbaycan tarixi"nin birinci cildində[4] öz əksini tapmışdır.

Rusiya tarixçilərindən V.P.Lıstsovun,[5] M.S.İvanovun[6], N.D.Mikluxo-Maklayın[7], P.P.Buşevin[8], N.N.Tumanoviçin[9], O.P.Markovanın[10], İ.K.Pavlovanın[11] və Y.Z.Əhmədovun[12] əsərlərində Səfəvi dövlətinin xarici siyasəti ilə bağlı müəyyən məsələlər öz əksini tapmışdır.

Müstəqillik illərində Azərbaycan Səfəvi dövlətinin tarixinə həsr olunmuş yeni əsərlər nəşr edilmişdir. Azərbaycan tədqiqatçıları Səfəvi dövlətinin tarixinin ingilisdilli tarixçilər tərəfindən işıqlandırılması probleminə xüsusi diqqət yetirmişlər. Bu baxımdan D.Q.Həsənzadənin,[13] R.Muğanlınskinin[14] və R.Dadaşovanın[15] əsərləri diqqəti cəlb edir.

---

[1] Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990.

[2] Məmmədova Ş. Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991.

[3] Вах: Канбай-заде Х.А. Взаимоотношения государства Сефевидов с западноевропейскими странами (конец XVI - первая треть XVII вв). Автореферат кандидатской диссертации. Баку: 1991.

[4] Azərbaycan tarixi, Üç cilddə, birinci cild. Bakı: Elm, 1958.

[5] Лысцов В. П. Персидский поход Петра I (1722-1723 гг.). Москва: МГУ, 1951.

[6] Иванов М. С. Очерк истории Ирана. Москва: Гос. изд-во политической литературы, 1952.

[7] Миклухо – Маклай Н. Д. К истории политических взаимоотношений Ирана со Средней Азией в XVI в. Т. IV. М.: 1952, АН СССР, с. 11-18.

[8] Бушев П. П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва: Наука, 1976.

[9] Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва: Наука, 1982.

[10] Маркова О. П. Россия, Закавказье и международные отношения в XVIII в. Москва: Наука, 1966.

[11] Павлова И.К. Хроника времен Сефевидов. Сочинение Мухаммад-Масума Исфахани «Хуласат ас-сийар». Москва: Наука, 1993.

[12] Ахмедов Я.З. Народы Северного Кавказа во внешней политике России, Ирана и Османской империи (первая четверть XVII века.): Автореф. дис. док. ист. наук. Ростов на Дону: 1989.

[13] Гасан-заде Д.Г. Англо-сефевидские отношения в конце XVI - начале XVII веков (по материалам английских источников). Баку: Из-во «Бакы Университети», 2007.

[14] Муганлинский Р. Азербайджанские государства XV-XVI вв. в английской историографии: Дис. кандитата исторических наук. Баку: 1997.

[15] Dadaşova R. Səfəvilərin son dövrü. Bakı: Nurlan, 2003.

Müstəqillik illərində Azərbaycan Səfəvi dövlətinin xarici siyasət məsələləri T.T.Mustafazadənin[1], Ş.Ş.Fərzəlibəylinin[2], Ə.Ə.Vilayətinin,[3] T.H.Nəcəflinin[4], F.A.Hüseynin[5], R.Ə.Ağayevin[6], Z.Həsənalıyevin[7], A.B.Baxşəliyevin,[8] O.Əlizadənin,[9] D.M.Əzimlinin[10], N.Musalının,[11] Z.Həsənalıyev və Z.H.Bayramlının[12] əsərlərində öz əksini tapmışdır.

**Tədqiqatın mənbə bazası.** Azərbaycan Səfəvi dövlətinin tarixinə dair farsdilli mənbələr İ.P.Petruşevski, O.Ə.Əfəndiyev, Ə.Ə.Rəhmani, S.M.Onullahi, Ş.F.Fərzəliyev və Ş.K.Məmmədova tərəfindən, Qərb mənbələri isə Y.M.Mahmudov tərəfindən ətraflı araşdırıldığını və onlar haqqında geniş məlumat verildiyini nəzərə alaraq biz mənbələrin qısa icmalını verməklə kifayətlənirik.

XVI əsr Səfəvi mənbələri içərisində "Şah Təhmasibin təzkirəsi"[13] adlı əsər mühüm yer tutur. 1524-1560-cı illərdə Səfəvi dövlətində baş vermiş hadisələri

---

[1] Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку: Элм, 1993; Yenə onun: XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002.

[2] Fərzəlibəyli Ş. F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: Elm, 1995; Yenə onun: Azərbaycan və Osmanlı imperiyası. Bakı: Kür, 1999.

[3] Vilayəti Ə. Şah İsmayıl dövründə İranın xarici əlaqələr tarixi. Tehran: Əl-Huda, 1998.

[4] Наджафли Т.Г. Сефевидско-османские отношения на первой половине XVII века в современной турецкой историографии. //«Азербайджан и азербайджанцы», Баку, 2009, №1-2, с. 104-115; Yenə onun: I Şah Abbas dövründə Səfəvi-Moğol münasibətləri Türkiyə tarixşünaslığında //Journal of Qafqaz University. Tarix, hüquq və siyasi elmlər ser., 2011, №32, s. 1-15; Yenə onun: I Şah Abbas dövründə Səfəvi-Şeybani münasibətləri Türkiyə tarixşünaslığında //Tarix və gerçəklik, 2012, s. 18-40; Yenə onun: XVII yüzilliyin II rübündə Səfəvi – Osmanlı münasibətləri müasir Türkiyə tarixşünaslığında // AMEA Tarix İnstitutu Elmi Əsərlər, c.21, 2007, s.34-49; Yenə onun: I Şah Abbas dövründə Səfəvi dövləti ilə Moskva knyazlığı arasında münasibətlər Türkiyə tarixşünaslığında // Geostrategiya, 2013, №5. s. 15-21; Yenə onun: XVI əsrin sonu – XVII əsrin əvvəllərində Qafqaz uğrunda Səfəvi-Osmanlı-Rusiya rəqabəti //AMEA Tarix İnstitutu Elmi Əsərlər, c.40, 2012, s. 192-208.

[5] Гусейнова Ф. Военно-политическая история Азербайджана в последней четверти XVI века (по материалам сочинений Ибрахима Рахимизаде): Дис. канд. ист. наук. Баку: 1999.

[6] Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı: Kür, 2004.

[7] Həsənalıyev Z. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı: Nurlan, 2007.

[8] Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU-nun mətbəəsi, 2009.

[9] Əlizadə O. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009.

[10] Əzimli D.M. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı - XVII əsrin I yarısı). Bakı: Turxan NPB, 2014.

[11] Musalı N. Azərbaycan Səfəvilər dövləti I Şah İsmayılın dövründə ("Aləmara-yi Şah İsmayıl" əsəri əsasında): Tar. elm. nam. dis. Bakı: 2006.

[12] Həsənalıyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı: Elm, 2011.

[13] Şah Təhmasibin təzkirəsi. Fars dilindən tərcümə və müqəddimə Ə.H.Rəhimovundur. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1996.

əks etdirən həmin əsərdə Sultan Süleymanın Azərbaycana yürüşünün səbəbləri, I Şah Təhmasibin Osmanlı ordusuna qarşı tətbiq etdiyi döyüş taktikası, Amasya sülhündən sonra Səfəvi-Osmanlı münasibətləri barədə mühüm məlumat verilmişdir.

Mövzuya aid mühüm mənbələrdən biri də Azərbaycan tarixçisi Həsən bəy Rumlunun "Əhsən ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəridir.[1] Bu əsərin sonuncu cildində 1494-1577-ci illər arasında baş vermiş tarixi hadisələr əks olunmuşdur. Mənbədə Səfəvilərin Osmanlı, Böyük Moğol və Şeybanilər dövləti ilə qarşılıqlı münasibətlər öz əksini tapmışdır.

Şərəfxan Bidlisinin "Şərəfnamə" adlı əsərində I Şah Təhmasibin hakimiyyətinin son illərində və II İsmayılın dövründə Səfəvilər dövlətində baş verən hadisələr, o cümlədən Səfəvi-Osmanlı münasibətləri ilə bağlı maraqlı məlumatlar verilir.[2]

Azərbaycan Səfəvi dövlətinin Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri araşdırılan zaman "Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu"ndakı məktublardan da istifadə edilmişdir.[3]

Problemin araşdırılmasında ən mühüm mənbələrdən biri görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") adlı sanballı əsəridir.[4] İsgəndər bəy Münşinin əsərində Səfəvi dövlətinin Osmanlı imperiyası, Şeybanilər dövləti, Böyük Moğol imperiyası və Avropa ölkələri ilə qarşılıqlı əlaqələri ilə bağlı mühüm məlumatlar, yazışma sənədləri və məktubların surəti öz əksini tapmışdır. Tədqiqat prosesində onlardan geniş şəkildə yararlanmışıq.

Mövzunun araşdırılması zamanı Avropa səyyahlarının və diplomatlarının səyahətnamələrindən də faydalanmışıq.[5]

---

[1] Rumlu Hasan bey. (Ahsenüt-tevarih). Şah İsmayıl tarihi. Çeviren Cevat Cevan. Ardıc Yayınları, Ankara: 2004.

[2] Бидлиси Ш.Ш. Шараф-наме. т. 1. Перевод, предис., прим., прил. Е.И. Васильевой. Москва: Наука, 1967;Yenə onun: Шараф-наме.т.2.Перевод, предис., прим., прил. Е.И.Васильевой. Москва: Наука, 1976.

[3] Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Fars və ərəb dillərindən tərcümə: Şahin Yəhyayev, Elmin Əliyev. Bakı: Şərq-Qərb, 2014.

[4] Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi. Farscadan tərcümənin, önsözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı: Şərq-Qərb, 2009; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I Kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F. Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2010; Yenə onun: Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014.

[5] Seyyahların gözüyle sultanlar ve savaşlar (Giovanni Maria Angiolello, Venedikli bir tüccar ve Vincenzo D`Aleksandrinin seyahatnameleri). Çeviren: T.Gündüz. Yeditepe Yayınları, İstanbul: 2007; Venesiyalılar Şah Təhmasibin sarayında (Mikel Membre ve Vinçenso Alessandri). İngilis dilindən

Dissertasiyanın fəsillərində bəzi məqamlarada tarixi həqiqəti bərpa etmək üçün digər mənbələrdən və onların tərcümələrindən yararlanmışıq.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd orta əsrlər Şərqinin qüdrətli bir dövlətinin – Azərbaycan Səfəvi imperiyasının xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsini öyrənmək, əldə olunan fakt materiallarını müxtəlif mənbələr və mövcud elmi ədəbiyyatla müqayisə edərək elmi-məntiqi nəticələr çıxarmaq, müqayisəli təhlil metodundan istifadə edərək ümumiləşdirmələr aparmaqdır. Dissertasiya işində qarşıya qoyulan bu məqsədi gerçəkləşdirmək üçün aşağıdakı vəzifələrin yerinə yetirmək nəzərdə tutulur:

- sovet tarix elmində Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin araşdırılması səviyyəsini müəyyən etmək və onların elmi təhlilini vermək;
- sovet tarixçilərinin tədqiqatları və dövrün mənbələri əsasında I Şah İsmayıl dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinə aydınlıq gətirmək;
- I Şah Təhmasib dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsini öyrənmək;
- XVI əsrin sonu-XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin xarici siyasət məsələlərinin sovet tarixşünaslığında tədqiqi səviyyəsini öyrənmək və təhlil etmək;
- I Şah Abbasın ölümündən sonra Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsinə aydınlıq gətirmək;
- XVII əsrin sonu – XVIII əsrin I yarısında Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsinin öyrənmək və əldə olunmuş konkret faktları ümumiləşdirmək və təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur.

**Tədqiqat işinin elmi yeniliyi.** Dissertasiya işi, əsasən, sovet tarixşünaslığının Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinə dair materiallarının ilk mənbələrlə müqayisəli tənqidi təhlili əsasında yazılmışdır. Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında öyrənilməsi ilk dəfə tədqiqat obyektinə çevrilmiş və əsərdə bir sıra əhəmiyyətli

tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir. Bakı: 2005.

müddəalar irəli sürülmüşdür.

- sovet tarixşünaslığında I Şah İsmayıl dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti öyrənilmiş, Osmanlı sultanı Səlimin Azərbaycana yürüşünün səbəbləri təhlil edilmişdir;

- I Şah Təhmasib dövründə Səfəvi-Osmanlı qarşılıqlı əlaqələri araşdırılmış, Osmanlı sultanlarının Azərbaycana yürüşlərinin səbəbləri və nəticələri təhlil edilmişdir;

- XVI əsrin son rübündə Osmanlı imperiyasının Azərbaycan Səfəvi dövlətinə qarşı yeni müharibəyə başlamasının səbəbləri aydınlaşdırılmış, tərəflər arasında baş verən müharibənin nəticələri təhlil edilmişdir;

- I Şah Abbas dövründə Azərbaycan Səfəvi dövlətinin xarici siyasətinin əsas istiqamətləri müəyyən olunmuş, Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrin sövet tarixşünaslığında tədqiqi səviyyəsi aydınlaşdırılmışdır;

- Sovet tarixçilərinin əsərlərində ideoloji təsirdən qaynaqlanan təhriflər, elmi əsası olmayan fikir və mülahizələr Vətən tarix elminin müasir, aktual tələbləri baxımından tənqid edilmiş, dövrün qaynaqlarından istifadə olunmaqla həmin məsələlərə obyektiv qiymət verilmişdir;

- XVII əsrin II yarısı – XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasətinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi öyrənilmiş və ilk mənbələr əsasında təhlil edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilə bilər ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən universitetlərin tarix fakültələrində "Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti sovet tarixşünaslığında" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərinin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Tədqiqat işi AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın başlıca müddəaları müəllifin Azərbaycan Respublikası Prezidentinin yanında AAK-nın siyahısında olan müxtəlif nəşrlərdə çap olunmuş elmi məqalələrində, müxtəlif elmi kofranslarda etdiyi məruzələrdə özünün tam əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 4 fəsil, nəticə və istifadə edilmiş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

I Fəsil **"Şah I İsmayılın xarici siyasəti sovet tarixşünaslığında"** adlanır. Bu fəslin ilk yarımfəslində Azərbaycan Səfəvi dövlətinin yaranması və möhkəmlənməsi məsələlərinin sovet tarixşünaslığında tədqiqi məsələləri araşdırılmışdır. Azərbaycan Səfəvi dövlətinin yaranma tarixinə yanaşmada sovet tarix elmində müxtəlif fikirlər mövcuddur. Azərbaycan tarixinin Səfəvi dövrünü tədqiq etmiş sovet tarixçilərinin bir qismi bu dövlətin 1501-ci ildə yarandığını göstərir,[1] digər qismi isə onun 1502-ci ildə yarandığını qeyd edir.[2] İ.P.Petruşevski "Azərbaycan XVI-XVII əsrlərdə" adlı məqaləsində Səfəvi dövlətinin 1502-ci ildə yarandığını qeyd etmişdir.[3] B.N.Zaxoder[4] və M.S. İvanov[5] da Səfəvi dövlətinin 1502-ci ildə yarandığı qənaətində olmuşlar.

Azərbaycan Səfəvi dövlətinin tarixinin bir çox məsələlərini araşdırmış görkəmli səfəvişünas O.Ə.Əfəndiyev bu məsələyə fərqli mövqedən yanaşmışdır. O, Səfəvi dövlətinin tarixinə həsr etdiyi əsərlərində bu dövlətin 1501-ci ildə yarandığını qeyd edir. O, "XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması" adlı əsərində qeyd edir ki, İsmayıl 1501-ci ildə təntənəli şəkildə Təbrizə daxil olmuş və özünü "Azərbaycanın şahı" elan etmişdi: "Doğrudur, İsmayılın Təbrizdə olmamasından istifadə etmiş Əlvənd 1503-cü ildə Təbrizi ələ keçirdi, lakin o, tezliklə darmadağın edildi və Bağdada qaçdı. Beləliklə, 1501-ci ili Qızılbaş (Səfəvi) dövlətinin yarandığı il hesab etmək lazımdır".[6]

I Fəslin 2-ci yarimfəslində isə Şah I Ismayılın hakimiyyəti dövründə Azərbaycan Səfəvilər dövlətinin xarici dövlətlərlə münasibətləri təhlil olunur. Sovet tarixçiləri Çaldıran döyüşünü dövrün çox mühüm hadisəsi kimi qiymətləndirmişlər. Y.M.Mahmudov "Ağqoyunlu və Səfəvi dövlətlərinin

---

[1] Эфендиев О. А. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд-во АН Азерб. ССР, 1961, с.109.
[2] İran / ASE. IV cild. Bakı: Azərb. SSR Dövlət Nəşriyyatı, 1980, s.504.
[3] Петрушевский И.П. Азербайджан в XVI-XVII вв., /Сборник статей по истории Азербайджана. Вып.1. Баку: Изд-во АН Аз.ССР, 1949, с.233.
[4] Заходер Б. Н. Средиземноморье и Передняя Азия (XI – XVIII вв.). Москва: Изд-во МГУ, 1940.
[5] Иванов М.С. Очерк истории Ирана. Москва: Гос. изд-во политической литературы, 1952, с.166.
[6] Эфендиев О. А. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд-во АН Азерб. ССР, 1961, с. 90-91.

Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri" adlı əsərində Çaldıran döyüşü ərəfəsində və bu döyüşdən sonra Şərqdə mühüm rol oynamış üç böyük dövlət (Osmanlı imperiyası, Səfəvi dövləti və Misir Məmlük sultanlığı) arasındakı qarşılıqlı münasibətlər haqqında məlumat verir.[1] O, göstərir ki, həlledici hesab oluna biləcək döyüş ərəfəsində həm Sultan I Səlim, həm də Şah I İsmayıl Misir sultanı ilə hərbi ittifaq yaratmağa cəhd etmişdilər. Lakin Misir sultanı hər iki hökmdara rədd cavabı vermişdi.[2] Vacib məqamlardan biri də (1514- cü il) Çaldıran döyüşündən sonra Şah I İsmayılın Sultan I Səlimlə sülh bağlayıb-bağlamaması problemi mübahisələr doğurmuşdur. Tədqiqatçılar bu məsələyə fərqli baxış nümayiş etdirirlər. İ.P.Petruşevski və N.A.Smirnov Çaldıran döyüşündən az sonra (1515-ci ildə) tərəflərin sülh bağladığını, Ərzurumla birlikdə Azərbaycan Səfəvi dövlətinin qərb torpaqlarının və Mosul şəhərinə qədər Şimali Mesopotamiyanın Osmanlı dövlətinə keçdiyini qeyd etmişlər. Azərbaycan Səfəvi dövlətinin qərb ərazilərinin qalan qismi, Azərbaycan (cənubi – R.Ş.), Bağdadla birlikdə Ərəb İraqı qızılbaşların nəzarətində qalmış və beləliklə, Osmanlı sultanı cüzi uğurla kifayətlənməli olmuşdur.[3]

O.Ə.Əfəndiyev 1514-cü il Çaldıran döyüşü nəticəsində Osmanlıların ələ keçirdiyi ərazilər barədə İ.P.Petruşevski ilə təqribən razılaşır, lakin o, Şah I İsmayılın Sultan I Səlimlə sülh bağlamadığını qeyd edir. O, yazır: "Çaldırandan sonra Şah I İsmayıl türk (Osmanlı – R.Ş.) sultanı ilə bir neçə dəfə sülh münasibətləri yaratmağa cəhd göstərdi. O, çıxıb gedən türk (Osmanlı) ordusunun arxasınca Mir Nurəddin Əbdül Vəhhabın başçılığı altında məktub və bahalı hədiyyələrlə səfir heyəti göndərdi. Bu heyətin məqsədi sülh müaviləsi bağlamaq, habelə sultandan Şah I İsmayılın əsir düşmüş arvadını geri almaq idi. I Səlim qızılbaş səfir heyətinə düşmən münasibət göstərərək onları həbsxanaya saldirdı. Hicri 921-ci ildə (miladi 1516-cı ildə) qızılbaş səfirləri Kəmaləddin Hüseyn bəy və Bəhram Mirzə Şah I İsmayılın "dostanə məktubu" ilə İstanbula gəldilər. Bu səfarət də nəticəsiz qaldı".[4] Bu, bir daha

---

[1] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с.121.

[2] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с. 142.

[3] Петрушевский И. П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с.241; Смирнов Н. А. Политика России на Кавказе в XVI-XIX веках. М.: Изд-во социально-экономической литературы, 1958. с.15.

[4] Эфендиев О. А. Образование азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд-во АН Азерб. ССР, 1961. с.119-120.

göstərir ki, Çaldıran döyüşündən sonra Səfəvi və Osmanlı dövlətləri arasında sülh bağlanmamışdır.

Dissertasiyanın II Fəsli **“Şah I Təhmasibin xarici siyasəti sovet tarixşünaslığında”** adlanır. Bu fəslin I yarımfəslində Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmışdır. Sovet tarix elmində Şah I Təhmasibin hakimiyyəti dövründə baş vermiş Səfəvi-Osmanlı müharibələri Səfəvi dövlətinin xarici siyasət tarixinin ən mühüm hadisələrindən biri kimi dəyərləndirilir, “Sultan Süleymanın Azərbaycana sahib olmaq cəhdlərinin hər şeydən öncə iqtisadi maraqlardan və tranzit ticarət yollarını ələ keçirmək istəyindən qaynaqlandığı” qeyd edilir. İ.P.Petruşevski Azərbaycan ərazisinə sahib olmağın Osmanlılar üçün strateji əhəmiyyətini önə çəkmiş, “bununla Səfəvilər dövlətinin digər vilayətlərinə hücum üçün əlverişli imkan yarana biləcəyini” qeyd etmişdir. Onun fikrincə, Osmanlı imperiyası Xəzər dənizi sahillərinə sahib olmaqla, həm də Orta Asiyanın XVI əsr boyu qızılbaşlara qarşı mübarizə aparmış özbək xanları ilə əlaqələri gücləndirə bilərdi.[1]

İ.P.Petruşevski daha sonra Cənubi Qafqazın əhəmiyyətini artıran ticarət yollarına və zəngin təbii ehtiyatlarına diqqət yetirmişdir: “Zaqafqaziyadan (Cənubi Qafqazdan – R.Ş.) keçən Avropa – Asiya karvan ticarəti yollarına sahib olmağın hər iki dövlət üçün mühüm əhəmiyyəti var idi Zaqafqaziyaya və Xəzər sahillərinə sahib olmaq yerli sərvətlər – Bakı nefti və duzu, Şirvan və Gilan ipəyi, yunu, misi, gümüşü də osmanlılar üçün mühüm idi. Zəngin ticarət mərkəzi olan Təbrizi ələ keçirmək də osmanlılar üçün çox sərfəli idi”.[2]

XVI əsrin Səfəvi-Osmanlı müharibələrinə qiymət verən Y.M. Mahmudovun fikirləri də bənzərsizliyi ilə seçilir. O, Azərbaycan Səfəvi və Osmanlı imperiyalarını “iki qüdrətli türk monarxiyası” kimi səciyyələndirərək onların daim müharibə həddində olmasının, bir-birini zəif salmasının Qərbi Avropa dövlətlərinin Şərqdə, o cümlədən Yaxın və Orta Şərq ölkələrində müstəmləkəçilik planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdığını qeyd edir: “Təsadüfi deyildir ki, Səfəvi dövlətinin Türkiyə ilə (Osmanlı dövləti ilə - R.Ş.) müharibə aparmasından istifadə edən Portuqaliya İran körfəzində möhkəmlənə bildi. 1547-1554-cü illərdə Osmanlı imperiyasının Portuqaliyanı

---

[1] Петрушевский И. П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с.262.
[2] Yenə orada, c.262.

İran körfəzindən sıxışdırıb çıxarmaq üçün apardığı hərbi dəniz əməliyyatları da istənilən nəticəni vermədi”.[1]

Sovet tarixçiləri 1555-ci ildən Şah I Təhmasibin hakimiyyətinin sonuna qədərki dövrü (1576) “Səfəvi-Osmanlı münasibətlərində sülh dövrü” kimi səciyyələndirmişlər. Sovet tarixçilərinin əsərlərində bu dövrün Səfəvi-Osmanlı münasibətləri haqqında çox az və fraqmentar məlumatlar təqdim edilir. Ş.F.Fərzəliyevin əsərində Amasiya sülhündən sonra (1556 /57-ci ildə) Şah I Təhmasibin Osmanlı sultanının sarayına elçi göndərdiyi göstərilir, lakin bu elçiliyin fəaliyyəti haqqında ətraflı məlumat verilmir.[2]

Bu yarımfəslində Azərbaycan Səfəvi dövlətinin Şərq dövlətləri ilə münasibətlərinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmışdır. Şeybanilərlə münasibətlər Şah I Təhmasibin dövründə Səfəvi dövlətinin xarici siyasətində mühüm aspektlərdən biri hesab olunur. Sovet tarixçiləri Şah I Təhmasibin dövründə Səfəvi-Şeybani əlaqələrinə Şah I İsmayılın dövründəki münasibətlərin davamı kimi baxmış, “Xorasan uğrunda mübarizənin davam etdiyini” bildirmişlər. Onlar göstərmişlər ki, Şah I Təhmasibin dövründə də Səfəvilərin Şeybanilərlə mübarizəsi dini şüarlar altında aparılmış, “dini düşmənçilik” bəhanəsi yalnız osmanlılarla deyil, Şeybanilər dövləti ilə də qarşılıqlı münasibətlər üçün səciyyəvi olmuşdur: “Sünnilər və şiələr arasındakı dini düşmənçilik XVI əsrdə və sonrakı dövrdə Xorasan uğrunda uzun sürən Səfəvi-Şeybani mübarizəsinin ideoloji şüarına xidmət edirdi. Şeybanilər Xorasana yiyələnmək uğrunda qızılbaşlarla mübarizəni “dönüklərə” (rafizilərə), şiələrə qarşı “müqəddəs müharibə” şüarı altında aparır, Şəriətlə təsdiq edilmiş “din uğrunda müharibə” (cihad və yaxud qəzavat) elan edirdilər”.[3]

Sovet tarixçilərinin tədqiqatlarında Səfəvi-Moğol münasibətlərinə müəyyən yer verilmişdir. K.A.Antonova Səfəvi-Moğol münasibətlərinə toxunaraq bir sıra maraqlı məqamlar haqqında məlumat vermişdir. Onun tədqiqat əsərindən məlum olur ki, Şah I Təhmasiblə Böyük Moğol hökmdarı Hümayun arasında heç də həmişə düşmən münasibətlər olmamışdır. “Hümayun ordusunun əfqanlar tərəfindən darmadağın edildiyini və qardaşları

---

[1] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с.167.

[2] Fərzəliyev Ş. F. Azərbaycan XV-XVI əsrlərdə. (Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri üzrə). Bakı: Elm, 1983, s.118.

[3] Миклухо – Маклай Н.Д. К истории политических взаимоотношений Ирана со Средней Азией в XVI в. Т. IV. Москва: 1952, АН СССР, с.14.

tərəfindən də yalqız buraxıldığını” qeyd edən K.A.Antonova onun arvadı, qulluqçusu və 40 etibarlı əyanın müşaiyəti ilə Səfəvilərin ərazisinə qaçmaqla Şah I Təhmasibdən yardım almaq istədiyini qeyd etmişdir.[1] Hümayunun Səfəvilər dövlətinə Qızılbaş-Moğol münasibətlərində əlamətdar hadisə sayıla biləcək səfəri O.Ə.Əfəndiyevin əsərində öz əksini tapmışdır. O.Ə.Əfəndiyev Hümayunun qızılbaşlar tərəfindən “təmtəraqla qarşılandığını” yazılı qaynaqlara əsasən incəliklərinə qədər təsvir etmişdir.[2]

Şah I Təhmasib iki illik tərəddüdən sonra Qəndəharın qızılbaşlara verilməsi və Hümayunun şiəliyi qəbul etməsi şərti ilə əfqanlarla mübarizədə ona kömək etmək qərarına gəlmişdi. Sovet tarixçiləri Hümayunun Əfqanıstan uğrunda qardaşları ilə mübarizəsinin “təqribən on il davam etdiyini və nəhayət, 1555-ci ildə Dehlini tutaraq taxt-taca sahib olduğunu” göstərmişlər.[3]

Sovet tarix ədəbiyyatında Səfəvilərin Hindistanla iqtisadi əlaqələri barədə araşdırma əsərləri diqqəti cəlb edir. Orta əsrlər dövründə Azərbaycanın Hindistanla iqtisadi və mədəni əlaqələrini tədqiq etmiş S.B.Aşurbəyli XVI əsrdə hər iki ölkənin tacirləri arasında mövcud olmuş ticarət əlaqələrinə də toxunmuşdur. Müəllif qeyd etmişdir ki, 1562-ci ildə ingilis səyyahı A.Cenkinson Səfəvi dövlətində olarkən onun yanına hind tacirləri də gəlmişdilər.[4] S.B.Aşurbəyli hind tacirlərinin Azərbaycan və İran bazarlarında XVII əsrin II yarısında – XVIII əsrin əvvəllərində möhkəmləndiyini qeyd etmişdir.[5]

İkinci fəslin III yarımfəslində isə Səfəvi dövlətinin Böyük Moskva knyazlığı və Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi öyrənilmişdir. XVI əsrin ortalarında Böyük Moskva knyazlığı Osmanlı dövlətini özünə başlıca rəqib hesab edirdi. Bu hərbi-siyasi, diplomatik məqam Səfəvi dövlətini və Böyük Moskva knyazlığını bir-birinə yaxınlaşdıran səciyyəvi cəhətlərdən idi. Osmanlı dövlətinin Qafqazda möhkəmlənməsindən ehtiyatlanan Böyük Moskva knyazları Səfəvi – Osmanlı müharibələrinə biganə qala bilmirdilər. XVI əsrdə Şimali Qafqaz xalqlarının Moskva dövləti ilə əlaqələrini tədqiq etmiş İ.Y.Kuşeva bu barədə yazırdı: “Artıq “Həştərxan işi”

---

[1] Антонова К. А. Очерки общественных отношений и политического строя Могольской Индии времен Акбара (1556-1605гг.). Москва: Изд-во Академии Наук ССР, 1952, с.40-42.

[2] Эфендиев О. А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, с.108-109.

[3] Рахмани А. А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1960, с.54.

[4] Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, с.32.

[5] Yenə orada, c.34.

həm də Moskvanı 1548-1555-ci illərin İran - Türkiyə (Səfəvi-Osmanlı – R.Ş.) müharibəsi ilə bağlı olan suallar dairəsinə cəlb etmişdi. Bir sıra faktlar onu göstərir ki, həmin müharibə özünün bilavasitə əksini həm də Mokvanın xarici siyasətində tapmışdı”.[1] Bu, Səfəvi dövləti ilə Böyük Moskva knyazlığını yaxınlaşmağa sövq edən başlıca amillərdən biri idi.

Sovet tarixçilərinin əsərlərində Şah I Təhmasib dövrünün Səfəvi-Moskva diplomatik əlaqələri ilə bağlı olan ilk tarixi fakt 1552/1553-cü ilə aid olunur.[2] O.Ə.Əfəndiyevin fikrincə, Seyid Hüseynin başçılıq etdiyi Səfəvi nümayəndə heyəti həmin ildə Moskvaya gəlmişdi. Görünür, həmin danışıqlarda Osmanlı dövləti əleyhinə ittifaq məsələsi də nəzərdən keçirilmişdi.[3]

Şah I Təhmasibin dövründə Səfəvi dövlətinin Böyük Moskva knyazlığı ilə qarşılıqlı münasibətlərini araşdırmış sovet tarixçiləri hər iki dövlətin bir-birinə maraq göstərdiyini qeyd etmiş, onları yaxınlaşdıran əsas amilləri aşkara çıxarmışlar.

Sovet tarixçiləri XVI əsrin birinci yarısında Səfəvi şahlarının Habsburqlarla diplomatik əlaqələr yaratmağa cəhd göstərdiyini qeyd etmişlər. Lakin, avropalı tarixçi Şefferə istinad edən Ə.Şahmalıyev belə cəhdlərin uğursuzluqla nəticələndiyini, Qərbdən göndərilmiş səfirlərin əksəriyyətinin həbs olunduğunu, İstanbulda öldürüldüyünü qeyd etməklə kifayətlənmişdir.[4]

Sovet tarixçiləri XVI əsrin III rübündə də Səfəvi şahlarının Avropa dövlətləri ilə əlaqələrini aşkara çıxarmış, bu dövrdə də qızılbaşları Qərb dünyası ilə yaxınlaşdıran əsas amilin “Osmanlı təhlükəsi” olduğunu göstərmişlər. Ə.Şahmalılyevin 1955-ci ildə dərc olunmuş məqaləsində Osmanlılarla müharibə aparılan zaman Səfəvilərin Portuqaliya ilə əlaqələrinə xüsusi diqqət ayrılır. Məqalə müəllifi “Hörmüz münaqişəsi”nə görə qızılbaşların portuqallarla münasibətlərinin gərginləşməsini göstərməklə yanaşı, hər iki dövlətin Osmanlı impreriyasını özünə rəqib saydığını əlaqələrdəki yaxınlaşmanın əsas səbəbi kimi müəyyənləşdirmişdir: “Portuqaliya kralı Türkiyəyə qarşı mübarizədə çox ehtiyac hiss etdikləri odlu

---

[1] Кушева Е. Н. Народы Северного Кавказа и отношения с Россией в XVI-XVII веках. Москва: АН СССР, 1963, с.194.

[2] Bax: Смирнов Н. А. Политика России на Кавказе в XVI-XIX веках. Москва: Изд-во социально-экономической литературы, 1958, с.45.; Новоселцев А. П. Русско-иранские политические отношения во второй половине XVI в. / Международные связи России до XVII в. Москва: 1961, с.448.

[3] Эфендиев О. А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981,с.117

[4] Шахмалиев Э. М. К вопросу о дипломатических отношениях первых Сефевидов с западными странами. Труды АГУ.сер.истор., вып.1, Б., 1950, с.56.

silahları portuqallardan alan və onlarla ittifaqa can atan Səfəvilərdən istifadə edirdi. Portuqaliya bəzən Səfəvilərə qoşunla da yardım edirdi. F.Kruşinskinin məlumatına görə, Şah I Təhmasib yardım olaraq türklərlə (osmanlılarla – R.Ş.) 1549-cu il döyüşündən əvvəl Fərat çayı sahilində portuqallardan 10 min döyüşçü və 20 səhra-çöl silahı almışdı".[1]

Sovet tədqiqatçılarının əsərlərində Səfəvi dövlətinin Avropa dövlətləri üçün əhəmiyyətini özündə əks etdirən çoxsaylı mənbə məlumatlarına təsadüf edilir. Həmin dövrün avropalı diplomatlarından iqtibas gətirmiş bu tarixçilər XVI əsrin beynəlxalq münasibətlər sistemində Səfəvi dövlətinin mühüm rol oynadığını sübut etmişlər. Y.M.Mahmudovun əsərində Roma papasının elçisi, kardinal Paolonun Almaniya (Müqəddəs Roma – R.Ş.) imperatoru V Karlla danışıqlarından maraqlı bir qeydə rast gəlirik: "Əgər Tanrı Böyük Türkə (Sultan Süleymana – Y.M.) qarşı İran (Səfəvi – Y.M.) şahı Təhmasibin şəxsində qüdrətli bir düşmən göndərməsə idi, Avropa və xristianlıq çoxdan məhv olardı".[2].

Y.M.Mahmudovun əsərləri Səfəvi-İngiltərə əlaqələrinin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Onun əsərlərində diqqət cəlb edən əsas məqamlardan biri 1561-ci ildə ingilis kraliçası Yelizaveta Tüdorun Şah I Təhmasibə məktub göndərməsi ilə bağlıdır. Həmin məktubda Yelizavetanın Səfəvi - İngiltərə əlaqələrinin hər iki tərəf üçün "böyük fayda" verəcəyini qeyd etməsi, Avropa dövlətlərinin Səfəvi dövləti ilə qarşılıqlı əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha sübut edir.[3]

Şah I Təhmasib dövründə Venesiya respublikası ilə qarşılıqlı əlaqalərə xüsusi diqqət yetirilmişdi. Tərəflər arasında elçi mübadiləsi davam etdirilmişdi. Venesiya respublikasının rəsmi dairələri Səfəvi şahını osmanlılara qarşı müharibəyə təhrik etmişdilər. Lakin 1555-ci ildə Səfəvi-Osmanlı sülhünün bağlanmasından sonra iki dövlət arasında mövcud olan dinc münasibətlərin qorunub saxlanmasında maraqlı olan Şah I Təhmasib Avropa dövlətlərinin Səfəvi sarayına göndərdiyi elçilərin təkidli tələblərini rədd edərək Osmanlı dövləti ilə münasibətləri gərginləşdirəcək addımlardan çəkinmişdi.

---

[1] Шахмалиев Э. М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века. // «Ученые записки» Азербайджанского Государственного Университета, Серия истории и философии, 1955, №7. с.118.

[2] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с.168.

[3] Yenə orada, c.171; Mahmudov Y. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980, s.10.

Dissertasiyanın III Fəsli **“XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasəti sovet tarixşünaslığında”** adlanır. Bu fəslin I yarımfəslində XVI əsrin sonu-XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı münasibətlərinin sovet tarixşünaslığında tədqiqindən bəhs olunur. Sovet tarixçiləri tərəfindən Məhəmməd Xudabəndənin hakimiyyəti dövrü “Səfəvi dövlətinin daxili vəziyyətinin mürəkkəb dövrü kimi qiymətləndirilir. Onun hakimiyyəti dövründə Səfəvi dövləti xeyli zəifləmiş, xəzinə boşalmışdı.[1] Zəif iradəli Məhəmməd Xudabəndə qızılbaş əmirlərinin, əyanlarının tam müstəqilliyi üçün əlverişli şərait yaratmışdı.

İ.P.Petruşevskinin fikrincə, güclü qızılbaş əmirləri Səfəvi dövlətinin ərazisini öz aralarında bölüşdürmək haqqında rəsmi sənəd də tərtib etmişdi, Məhəmməd Xudabəndəyə isə yalnız “şah” titulu qalmışdı.[2]

Səfəvi dövlətinə daimi rəqib kimi yanaşan Osmanlı sultanı bu əlverişli vəziyyətdən istifadə etmək qərarına gəldi. Osmanlı sultanı III Murad Azərbaycan Səfəvi dövlətinə yeni hərbi yürüş təşkil etmək üçün hazırlıqlara başladı. O.Ə.Əfəndiyev qeyd edir ki, hərbi yürüş ərəfəsində osmanlılar Səfəvi dövlətinin qərb sərhədlərində yaşayan kürd tayfalarından istifadə etdilər: “Vanın Osmanlı hakimi Xosrov paşa sərhəd boyunda yaşayan kürd tayfalarının Azərbaycan Səfəvi dövlətinə qarşı qiyamını qaldırmaq barədə göstəriş aldı. Öncə hüquqları II İsmayılın fərmanı ilə təsdiqlənmiş Səlmas və Tasuq hakimi Şahqulu Bülbülan oğlu Qazı bəy Səfəvi şahına qarşı qiyam qaldırdı. Xosrov paşanın qoşunları kürdlərlə birgə qəflətən Xoya hücum etdilər və bununla Sultan Süleymanın imzaladığı 1555-ci il müqaviləsini pozdular”.[3]

Şah I Abbasın hakimiyyətinin (1587-1629) ilk illəri Azərbaycan Səfəvi dövləti tarixinin ən ağır məqamlarından biri olmuşdur. Ə.Rəhmani bu barədə yazır: “Xorasanı özbəklər (Şeybanilər – R.Ş.) tutmuşdular, Azərbaycan isə türklər (osmanlılar – R.Ş.) tərəfindən işğal edilmişdi. İmperiyanın qalan hissəsi, yəni mərkəzi İran hərc-mərclik dövrünü yaşayırdı: Farsda Zülqədər tayfasının əmirləri qarışıqlıq salmışdılar; Yəzd və Kirman vilayətlərinin hakimi Bektaş xan mərkəzi hakimiyyətə tabe olmaq istəmirdi, Həsən xan Əfşar İranın qərbində Kuhgiluyə vilayətində özünü hakim elan etmişdi, İsfahan hakimi

---

[1] Məmmədov S.A. Azərbaycan tarixi XV – XVIII əsrin I yarısında. Bakı: APİ nəşri, 1982, s.46; Петрушевский И. П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с. 271.

[2] Петрушевский И. П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с. 271.

[3] Эфендиев О. А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Элм, 1981, с.147-148.

Yolubəy də müstəqillikdən danışırdı, Xəzərsahili vilayətlər, Mazandaran, Gilan və Astrabad yerli hakimlərin hökmranlığı altında idilər”.[1]

Lakin Şah I Abbas qısa müddət ərazində Azərbaycan Səfəvi dövlətinin sarsılmış qüdrətini bərpa edə bildi.[2] O, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən əyanlara qarşı sərt tədbirlər gördü. Şah bir sıra sahələrdə, o cümlədən hərbi sahədə ciddi islahatlar həyata keçirdi. İslahatların əsas məqsədi dövləti yenidən təşkil etmək, habelə dövlətin itirilmiş torpaqlarını geri qaytarmaq idi. Dövlət daxilindəki islahatlardan sonra - XVI əsrin sonlarına doğru Şah I Abbas xarici siyasətdə fəallığı artırdı. Y.M.Mahmudov göstərir ki, həmin dövrdə Səfəvi dövlətinin qarşısında xarici siyasət baxımından üç başlıca vəzifə dururdu: 1) Şeybanilər dövlətini məğlub edib Xorasanı geri qaytarmaq; 2) 1578-1590-cı illərdə baş vermiş müharibə nəticəsində Osmanlı imperiyası tərəfindən qəsb olunmuş torpaqları geri qaytarmaq; 3) İran körfəzində Portuqaliyanın hökmranlığına son qoymaq.[3]

Sovet tarixçiləri arasında 1612-ci ildə bağlanmış Səfəvi-Osmanlı sülh müqaviləsinin yeri barədə yekdil fikir yoxdur. İ.P.Petruşevski “bu sülh müqaviləsinin İstanbulda imzalandığı”nı qeyd etmişdir.[4] Lakin Ə.Rəhmaninin əsərində “1612-ci il sülh müqaviləsinin İstanbulda imzalanmadığını” qeyd edilmişdir.[5] Səfəvi-Osmanlı münasibətlərinə dair son tədqiqatlar təsdiq edir ki, 1612-ci ildə Səfəvi-Osmanlı sülhü məhz İstanbulda imzalanmışdır.[6]

Bağdad şəhəri osmanlılar tərəfindən tutulduqdan sonra Osmanlı–Səfəvi sülh danışıqları başlandı. 1639-cu ilin may ayında Səfəvi və Osmanlı dövlətləri arasında 1612-ci il sülh müqaviləsinin şərtlərini təsdiqləyən yeni sülh müqaviləsi imzalandı.[7] Beləliklə, XVI əsrin son rübündən XVII əsrin 30-cu illərinin sonlarına kimi fasilələlərlə davam etmiş Səvəvi–Osmanlı müharibələrinə son qoyuldu və həmin dövlətlər arasındakı hərbi-siyasi qarşıdurmada uzunmüddətli fasilə (XVIII əsrin 20-ci illərinədək) yarandı.

III fəslin II yarımfəslində Azərbaycan Səfəvi dövlətinin Böyük Moskva knyazlığı və Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi təhlil edilmişdir.

---

[1] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, s.110.
[2] Yenə orada, s.112.
[3] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с.189.
[4] Петрушевский И. П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с. 279.
[5] Рахмани А. А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, с.82.
[6] Bax: Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri. Bakı, Turxan, 2014, s. 299-301.
[7] Петрушевский И.П. Азербайджан в XVI –XVII вв. ССИА. Выпуск I. Баку: 1949, с. 279.

Sovet tarix ədəbiyyatından məlum olur ki, XVI əsrin 90-cı illərində Səfəvi dövlətinin Böyük Moskva knyazlığı ilə əlaqələrində ticarət məsələləri xeyli önə çıxmışdı. Səfəvi və Osmanlı dövlətləri arasında sülh müqaviləsinin bağlanması şah sarayının Moskva knyazlığı ilə münasibətlərində hərbi-siyasi mənafelərdən daha çox iqtisadi-ticarət əlaqələrinə üstünlük verməsinə gətirib çıxarmışdı. Şah I Abbasın Moskvaya göndərdiyi səfirlərin apardığı danışıqlarda ticarət məsələləri mühüm yer tutmuş, bir sıra hallarda isə həmin məsələlər şah səfirlərinin qarşısına "əsas vəzifə" kimi qoyulurdu. P.P.Buşevin əsərlərindən məlum olur ki, Şah I Abbas tərəfindən Hacı Xosrovun, Hacı İsgəndərin və Əli Xosrovun rəhbərliyi altında Moskvaya göndərilmiş elçi heyətlərinin əsas məqsədi ticarət məsələlərinin həlli ilə bağlı idi. P.P.Buşev yazır ki, "Hacı İsgəndər Moskvaya göndərilmiş ilk rəsmi şah taciri idi" və "onun səfəri siyasi əhəmiyyət daşımırdı".[1] Lakin Hacı İsgəndərin Moskva səfəri uğurla nəticələnməmiş, onun səfəri Səfəvi şahının ticarət mənafeləri üçün heç bir səmərə verməmişdi. P.P.Buşevin fikrincə, "bu uğursuzluğun başlıca səbəbi Hacı İsgəndərin səriştəsizliyi" idi.[2]

Ümumiyyətlə, XVI əsrin sonu - XVII əsrin əvvəllərində fəallaşmış Səfəvi-Moskva qarşılıqlı əlaqələri sovet tarixçiləri tərəfindən xırda təfərrüatlarına qədər tədqiq edilmişdir. Tədqiqatçıların, xüsusilə P.P.Buşevin əsərindən məlum olur ki, hər iki dövlət arasında davamlı olaraq elçi mübadiləsi davam etdirilmişdi. Bu zamanı əsas müzakirə mövzusu yenə də Osmanlı dövlətinə qarşı hər iki tərəfin hərbi ittifaq bağlaması olmuşdu. Lakin sovet tarix elmində Səfəvi dövləti və Moskva knyazlığı arasında Osmanlı imperiyasına qarşı hərbi ittifaqın bağlanıbbağlanmaması sualına birmənalı cavab verilməmişdir. Bu problemlə məşğul olmuş A.P.Novoseltsev və P.P.Buşev arasında ciddi fikir ayrılığı olmuşdur. A.P.Novoseltsevin fikrincə, 1602-ci ildə Səfəvi səfiri Moskvada Osmanlı dövləti əleyhinə birgə hərbi əməliyyatlara başlamaq barədə müqavilə imzalamışdı. Əldə olunmuş razılığa görə, rus qoşunları Tarku şamxalının ərazisindən Osmanlı qarnizonunun yerləşdiyi Dərbənd şəhərinə doğru hərəkət etməli idi.[3] Lakin P.P.Buşev A.P.Novoseltsevin bu fikrini mötəbər hesab etmir. O, aşağıdakı qənaəti ilə onun fikrini təkzib edir: "Birincisi, A.P.Novoseltsevin ittifaq müqaviləsi ilə

---

1 Бушев П. П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва: Наука, 1976, с.208.
2 Бушев П. П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва: Наука, 1976, с.208.
3 Новоселцев А.П. Русско-иранские политические отношения во второй половине XVI в. / Международные связи России до XVII в. Москва: 1961, с.456.

bağlı olaraq göstərdiyi tarix (1602-ci il) Laçın bəyin (güman edilir ki, bu müqaviləni Səfəvi tərəfdən Moskvaya səfər etmiş Laçın bəy imzalamışdı – R.Ş.) səfarətinin Moskvada olduğu vaxta uyğun gəlmir. İkincisi, 1604-cü ilin iyun ayının 19-da öz pristavı İvan Sudakovu ətraflı təlimatlandırmış Səfarət (Posol – R.Ş.) prikazı Osmanlı imperiyasına qarşı birgə mübarizə ilə bağlı onlarla (Səfəvilərlə - R.Ş.) hər hansı bir müqavilənin olması barədə heç bir ifadə irəli sürməmişdi. Üçüncüsü, əgər müqavilə 1603-cü və yaxud 1604-cü ildə imzalansa idi, bu, Moskva dövləti və Səfəvi dövləti arasında sonrakı siyasi münasibətlərdə öz əksini mütləq tapardı".[1] P.P.Buşev göstərilən məsələləri xüsusi qeyd edərək belə nəticəyə gəlmişdir ki, Səfəvi dövləti və Moskva knyazlığı arasında Şah I Abbasın hakimiyyəti dövründə hərbi ittifaq haqqında müqavilə imzalanmamışdır.[2] Y.N.Kuşeva da A.P.Novolseltsevin hərbi ittifaqla bağlı müqavilənin imzalanmasına dair mövqeyi ilə razılaşmamış, lakin Moskva dövlətinin 1604-1605-ci illərdə Qafqazda apardığı hərbi əməliyyatları "XVII əsrin əvvəllərində keçirilmiş Səfəvi-Moskva danışıqları "ilə əlaqələndirmiş və həmin danışıqların nəticəsi" kimi qiymətləndirmişdir.[3]

Azərbaycan Səfəvi dövlətinin Qərb dövlətləri ilə əlaqələri tarixində "Böyük elçilik" adlandırılan səfər mühüm yer tutur. Sovet tarix ədəbiyyatında göstərilir ki, Şah I Abbas 1599-cu ildə Hüseynəli bəy Bayatın başçılığı ilə Roma papası, Venesiya Respublikası, Müqəddəs Roma imperiyası, İngiltərə, Fransa, İspaniya kralları, Toskana hersoqu, Şotlandiya kralı, Reç-Pospolita kralı və Skandinaviya ölkələrinin hökmdarları ilə danışıqlar aparmaq üçün Avropaya böyük bir elçi heyəti yola salmışdı.[4] Səfəvi şahı hətta öz məktublarında vəd edirdi ki, "Səfəvi dövləti hüdudlarında xristianlara öz dinlərini təbliğ etmək, kilsə tikmək və yaşamaq icazəsini verəcəkdir".[5] Lakin Səfəvi şahının istəyi bu dəfə də gerçəkləşmədi. Əksinə, 1606-cı ildə Müqəddəs Roma imperatoru Osmanlı sultanı ilə sülh müqaviləsi imzaladı və onunla müharibəni dayandırdı. Şah I Abbasın Amasiya sülhünün (1555) şərtləri əsasında osmanlılarla yeni sülh müqaviləsini imzalamasının səbəblərindən biri

---

[1] Бушев П. П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. Москва: Наука, 1976, с.392.
[2] Yenə orada, c.292.
[3] Кушева Е.Н. Народы Северного Кавказа и отношения с Россией в XVI-XVII веках. Москва: Издательство Академии Наук СССР,1963, с.286.
[4] Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. (вторая половина XV – начало XVII вв.). Баку: Изд-во Бакинского Университета, 1991, с.196.
[5] Yenə orada, c.197.

də məhz Avropa dövlətlərini Osmanlı dövləti əleyhinə müharibəyə cəlb edə bilməməsi oldu.

Sovet tarixçilərinin tədqiqatlarında Səfəvi-Portuqaliya münasibətlərinə xüsusi yer verilmişdir. Bu tədqiqatlarda XVII əsrin əvvəlləri "Səfəvi-Portuqaliya münasibətlərinin gərgin dövrü" kimi qiymətləndirilir. XVI əsrin əvvəllərindən başlanmış "Hörmüz münaqişəsi" Şah I Abbasın dövründə yenidən kəskinləşmişdi. Hörmüz Səfəvi ipəyinin Avropaya daşınması üçün mühüm liman hesab olunurdu. Buna görə də, Şah I Abbas osmanlılarla müharibədən sonra bu ərazini geri qaytarmaq qərarına gəlmişdi. İ.P.Petruşevski qeyd edir ki, Səfəvi şahının İspaniya və Portuqaliya kralı III Filiplə Səfəvi ipəyinin Hörmüz vasitəsilə daşınması ilə bağlı Avropa ölkələri ilə apardığı danışıqları bir nəticə vermədi. Lakin ingilis Ost-Hind şirkətinin yardımına arxalanan Şah I Abbas 1623-cü ildə portuqalları oradan çıxara bildi.[1]

Şah I Abbas Avropa dövlətləri ilə ticarət əlaqələrinə də xüsusi əhəmiyyət verirdi. Şah I Abbas ticarət əməliyyatları aparmaq məqsədilə XVII əsrin əvvəllərində Venesiya respublikasına bir neçə dəfə elçi göndərmişdi. Müharibələrin olmadığı vaxtlarda ticarət əlaqələrində xüsusilə canlanma nəzərə çarpırdı. 1612-ci ildə Səfəvi – Osmanlı sülh müqaviləsinin imzalanması Avropa dövlətləri ilə ticarətin fəallaşdırılması üçün yeni imkanlar açdı. 1613 və 1621-ci illərdə Şah I Abbasın Venesiya respublikasına göndərdiyi elçiliklərin əsas məqsədi də məhz ticarətlə bağlı olmuşdur. Venesiya senatı hətta "Səfəvi ipəyinin gömrükdən azad olunması" haqqında qərar da qəbul etmişdi. 1616-cı ildə Şah I Abbas xüsusi fərmanla ingilis tacirlərinə, 1623-cü ildə isə holland Ost-Hind şirkətinə Səfəvi dövlətinin ərazisində sərbəst ticarətlə məşğul olmaq icazəsini verdi.[2]

Göründüyü kimi, XVI əsrin son rübü – XVII əsrin I yarısında Səfəvi dövlətinin xarici siyasət tarixini tədqiq etmiş sovet tarixçiləri həmin dövrdə də bu dövlətin beynəlxalq əlaqələrinin əski Səfəvi hökmdarlarının xarici

---

[1] Бодянский В., Герасимов О., Медведко Л. Княжества Персидского залива. Москва: Мысль, 1970, с.18; Пигулевская В. В., Якубовский А. Ю., Петрушевский И. П., Строева Л. В.,Беленицкий А. М. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград: Изд-во Ленинградского Университета, 1958, с.275-276.

[2] Махмудов Я.М. К вопросу о взаимоотношениях государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV - начало XVII века). Статья первая // Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права. 1987. № 3, с. 39.; Yenə onun: К вопросу о взаимоотношениях государств Ак-коюнлу и Сефевидов с европейскими странами (II половина XV - начало XVII века). Статья вторая // Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права. 1987. № 4, с.129.

siyasətindən keyfiyyətcə fərqlənməyən mənzərəsini təqdim etmişlər. Həmin dövrdə Azərbaycan Səfəvi dövləti Osmanlı imperiyası ilə üzücü müharibələrini davam etdirmiş, Moskva knyazlığına və Avropa dövlətlərinə isə təqribən müttəfiq kimi yanaşmış, həmin dövlətlərlə diplomatik və ticarət əlaqələrini genişləndirməyə çalışmışdır. Sovet tarix ədəbiyyatında "Osmanlı təcavüzü" Azərbaycan Səfəvi şahlarını Moskva knyazlığı və Avropa dövlətləri ilə yaxınlaşdıran "başlıca amil" kimi qiymətləndirilmişdir.

Dissertasiyanın IV Fəsli **"XVII əsrin 30-cu illəri – XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasəti sovet tarixşünaslığında"** adlanır. Bu fəslin I yarımfəslində Səfəvi-Moskva qarşılıqlı əlaqələrinin sovet tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmışdır.

Sovet tarixçilərinin qənaətinə görə XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin düşmüş olduğu ağır vəziyyətdən istifadə edən I Pyotr Xəzərsahili vilayətləri ələ keçirmək niyyətini gerçəkləşdirmək istəmişdir. F.Əliyevin fikrincə, I Pyotrun xarici siyasətində şimal-şərqi Azərbaycan torpaqlarında möhkəmlənmək çox mühüm yer tuturdu.[1] I Pyotrun Xəzərsahili vilayətlərə yürüşünə xüsusi monoqrafiya həsr etmiş V.P.Lıstsov "Şamaxı şəhərinin Rusiya və Osmanlı imperiyası üçün daha mühüm əhəmiyyət kəsb etdiyini" qeyd edir, Şamaxının "Xəzərsahili məsələlərdə əsas Rusiya-Osmanlı toqquşması nöqtəsi olduğunu", "rusların 1722-ci il hərbi yürüşündə birinci dərəcəli yer tutduğunu" göstərirdi.[2] Bununla yanaşı, sovet tarixçiləri Dərbənd və Bakı şəhərlərinin də "ruslar üçün az əhəmiyyət kəsb etmədiyini" də qeyd etmişlər.[3]

Sovet tarixçilərinin əsərlərində I Pyotrun Azərbaycana hərbi yürüşü ilə bağlı olaraq ən çox ideoloji təsirə məruz qalmış məqamlardan biri də "əhalinin ruslara meyl etməsi" ilə bağlı olan yanlış, qeyri-elmi müddəadır. Sovet dövrünün tarix əsərlərində I Pyotrun Azərbaycana hərbi yürüşünün "xalq tərəfindən dəstəkləndiyi" qeyd olunur. F.Əliyev bu müddəanı "sübuta yetirmək" üçün "bir neçə Dərbənd və Bakı sakininin I Pyotra ünvanladıqları rəğbət dolu məktubları" təqdim edir və "bir sıra başqa şəhərlərin əhalisinin könüllü surətdə Rusiya təbəəliyini qəbul etmək istədiklərini" qeyd edirdi.[4]

---

[1] Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: Элм, 1975, с.43.

[2] Лысцов В.П. Персидский поход Петра I (1722-1723 гг.). Москва: МГУ, 1951, с.120.

[3] Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку: Элм, 1975, с.44.

[4] Yenə orada, с.45-50.; Альтман М. Из истории торгово-дипломатических связей Москвы и Ширвана / Труды Института истории АН Аз.ССР. Т. I. Баку: 1947, с.57-60.

Lakin F.Əliyevin həmin "tutarlı dəlillərini" təkzib edən çoxsaylı tarixi məlumatlar mövcuddur. Həmin məlumatlardan "Rusiyaya meyllə" bağlı olan əfsanənin məhz sovet dövründə uydurulduğu bəlli olur. Bu cür təsadüfi "faktlar" sovet tarix elmində şişirdilmiş şəkildə təqdim edilirdi. Bakı ilə bağlı olan bu nümunədə isə həmin müddəanın tarixi gerçəklikləri əks etdirmədiyi aşkardır. M.İsgəndərovanın məqalələrindən birində "Azərbaycanda Rusiya meylinin artması" ilə bağlı olan fikirlər elmi surətdə tənqid edilir.[1]

XVIII əsrin əvvəllərində Bakının yerli feodalları və şəhərin ali zümrəsi arasında iki meyl yaranmışdı. Onların bir qismi həqiqətən Rusiyaya meyl edirdi. Güman etmək olar ki, onlar öz hakimiyyətlərini saxlamaq üçün rus ordusunun gəlişinə ümid edirdilər. Lakin son 25 ilin araşdırmaları onu göstərir ki, ruslara müqavimət göstərənlər əhalinin əksər qismini təşkil edirdilər. S.B.Aşurbəyli Bakı şəhərinin tarixinə həsr etdiyi əsərində qeyd etmişdir ki, Bakı əyanları şəhəri dağıntıdan xilas etmək üçün I Pyotra müraciət etmiş, lakin onun müdafiəsini təşkil etmək məqsədilə Azərbaycan Səfəvi şahından ordu, silah və ərzaq göndərilməsini də xahiş etmişdilər.[2]

Bu fəslin II yarımfəslində böyük dövlətlərin Azərbaycan Səfəvi dövləti ərazisində möhkəmlənmək siyasəti və Səfəvi dövlətinin süqutu məsələlərinin sovet tarixşünaslığında tədqiqi məsələləri araşdırılmışdır. Burada Nadir xan Əfşarın başçılığı altında Səfəvi ordusunun osmanlılara qarşı apardığı mübarizəyə xüsusi diqqət yetirilmişdir. 1732-1735-ci illər ərzində onun qoşunları Cənubi Qafqazın xeyli qismini osmanlılardan geri aldı. İ.P.Petruşevski qeyd etmişdir ki, "Nadir xan Gəncənin mühasirəsi zamanı rus münəndislərinin və topçularının yardımından istifadə etmişdi". Bu, Nadir xanın Xəzərsahili vilayətləri (Bakı və Dərbənd şəhərlərini) boşaltmağı Rusiyadan tələb etməsini asanlaşdırdı. İmperatriça Anna İvanovna (1730-1740) Nadir xan Əfşarla razılaşaraq "Osmanlı dövlətinə qarşı müharibənin davam etdirilməsi və separat sülh müqaviləsi imzalanmaması" şərtilə həmin tələblə razılaşdı. 1735-ci ilin mart ayında Gəncədə çar Rusiyası ilə yeni müqavilə imzalandı: Çar Rusiyası rəhbərliyi Azərbaycanın Xəzərsahili vilayətlərdən imtina etdi. Beləliklə, Rəştdə və Gəncədə imzalanmış müqavilələrə əsasən ruslar tutduqları Xəzərsahili vilayətləri tərk etməli oldular. Bunun əvəzində isə ruslara

[1] Искендерова М. К вопросу о русской ориентации в Азербайджане в I трети XVIII века в освещении советских историков // Известия АН Азерб. ССР. Серия истории, философии и права. 1991, №1, с. 56-63.
[2] Ашурбейли С.Б. История города Баку. Баку: Азернешр, 1992, с.209.

Azərbaycan Səfəvi dövləti ərazisində gömrüksüz ticarət hüququ və Rəştdə konsulluq açmaq icazəsi verildi.[1]

Lakin tezliklə Gəncə müqaviləsində nəzərdə tutulan, "osmanlılarla separat sülh müqaviləsinin imzalanmaması" ilə bağlı olan öhdəlik Nadir xan Əfşar tərəfindən pozuldu. Belə ki, o, 1736-cı ildə Ərzurumda Osmanlı rəhbərliyi ilə sülh müqaviləsi imzaladı. Həmin müqaviləyə görə, Osmanlı tərəfi də 1722-ci ilə qədər ələ keçirdiyi Azərbaycan Səfəvi torpaqlarını geri qaytardı.[2]

Sovet tarix ədəbiyyatında göstərilir ki, son hadisələrdən sonra Səfəvi sülaləsi gerçək siyasi hakimiyyətini deyil, habelə feodal əyanları içərisində nüfuzunu da itirmiş,[3] Nadir xan Əfşarın nüfuzu isə "ölkənin xilaskarı" kimi daha da artmışdı. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Nadir xan Əfşar şahlıq taxt-tacını da ələ keçirmək iddiasına düşmüşdü. Bu məqsədlə o, 1736-cı ilin yanvar-mart aylarında hərbi qurultay çağırdı. Nadir xan həmin qurultayda bir sıra əyanların və ruhanilərin narazılığına baxmayaraq, şah seçildi. Devrilmiş son Səfəvi şahı - dörd yaşlı III Abbas Xorasana (atasının yanına – R.Ş.) göndərildi, sonra isə ata və oğul orada qətlə yetirildi.[4] Beləliklə, 236 illik tarixə malik olan Azərbaycan Səfəvi dövləti tarixə çevrildi.

Göründüyü kimi, Azərbaycan Səfəvi dövləti tarixinin son dövrünün xarici siyasəti də sovet tarix elmində diqqətlə izlənilmişdir. Sovet tarixçiləri XVII əsrin ikinci yarısından XVIII əsrin 30-cu illərinə qədərki tarixi mərhələni "Səfəvi dövlətinin zəifləməsi və tənnəzzülü dövrü" kimi səciyyələndirmişlər. Sovet tarix ədəbiyyatında XVIII əsrin 20-ci illlərində Azərbaycan Səfəvi dövləti ərazilərinin xeyli qisminin "Osmanlı, rus və əfqan qoşunlarının işğallarına məruz qaldığı" qeyd edilmişdir. Sovet tarixçiləri göstərmişlər ki, Nadir xan Əfşarın uğurlu hərbi əməliyyatları nəticəsində Azərbaycan Səfəvi dövlətinin əraziləri işğalçılardan azad olunmuş və Səfəvi imperiyasının sərhədləri bərpa olunmuşdur.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilmişdir.

---

[1] Мамедова Г.Н. О попытке перемещения центра консульской резиденции в город Баку в первой половине XVIII века //Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права. 1980, № 2, с.53.

[2] Пигулевская В.В., Якубовский А. Ю., Петрушевский И. П., Строева Л.В. Беленицкий А. М. История Ирана с древнейших времен до конца XVIII века, Лениниград: Издательство ЛГУ, 1958, с.317-318.

[3] Yenə orada, с.319.

[4] Yenə orada, с.319-320.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Внешняя политика Азербайджанского государства Сефевидов в трудах И.П.Петрушевского // AMEA Tarix İnstitutu Elmi Əsərlər, Bakı: 2010, cild 32, s. 42-49.
2. К вопросу о происхождении и внешней политике Азербайджанского государства Сефевидов в советской историографии // AMEA aspirantlarının elmi konfransının materialları, Bakı: 2010, s.344-346.
3. К вопросу о внешней политике Азербайджанского государства Сефевидов в период правления шаха Исмаила I в советской историографии. /AMEA aspirantlarının elmi konfransının materialları, Bakı: 2011, s.195-198.
4. Səfəvi-Moskva münasibətləri məsələsinə dair. Gəncə Dövlət Universiteti, Elmi xəbərlər, Fundamental, Humanitar və Təbiət elmləri seriyası, 2013, №3, s. 232-237.
5. Şah I Təhmasibin dövründə Səfəvi-Osmanlı münasibətləri sovet tarixşünaslığında. //Pedaqoji Universitet Xəbərləri, humanitar elmlər bölməsi, 2014, №3, s.175-179.
6. I Təhmasibin Moskva knyazlığı və Qərb dövlətləri ilə əlaqələri./ Azərbaycanşünaslığın aktual problemləri.Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, II hissə, Bakı Slavyan Universiteti, 5-7 may 2015 s.434-436.
7. At the beginning of the XVIII century the reinforcing policy of the Safavid in the area of European countries Гілея. Науковий вісник, Збірник наукових праць, Випуск 102 (11), Киів: 2015, с.135-138.
8. Böyük dövlətlərin Səfəvi dövləti ərazisində möhkəmlənmə siyasəti və Səfəvi dövlətinin süqutu.Pedaqoji Universitet xəbərləri, Humanitar elmlər bölməsi. 2016, №1 s.170-177.
9. XVI əsrin sonunda-XVII əsrin əvvəllərində Səfəvi dövlətinin Moskva knyazlığı və Avropa dövlətləri ilə münasibətləri sovet tarixşünaslığında. //Pedaqoji Universitet xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər bölməsi. Bakı: 2017, C.65, №1, s.154-164.

**Р.Я.Ширалиев**

**Внешняя политика Сефевидского государства в советской историографии**

## РЕЗЮМЕ

Представленная диссертация посвящена исследованию внешней политики Азербайджанского Сефевидского государства в советской историографии. Диссертация состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, ее изученность, определяются цели и задачи исследования, научная новизна, а также раскрывается теоретическое и практическое значение.

В первой главе исследуются образование Азербайджанского Сефевидского государства, укрепление и расширение территорий в период правления Шаха Исмаила I в советской историографии. В этой главе также анализируется внешняя политика Азербайджанского Сефевидского государства, взаимоотношения с Османской империей и с западноевропейскими государствами в советской историографии.

Во второй главе описывается период правления Шаха Техмаспа I в советской историографии. Исследуются взаимоотношения с Османской империей, Московским княжеством, Восточными и Европейскими государствами.

В третьей главе рассматривается внешняя политика Азербайджанского Сефевидского государства в конце XVI— начале XVII вв. в советской историографии. Исследуются взаимоотношения Сефевидского государства в период правления Мухаммеда Худабанде, Шаха Аббаса I с Османской империей, Московским княжеством и Европейскими государствами.

Четвертая глава посвящена изучению внешней политики Азербайджанского Сефевидского государства с 30-ых годов XVII — до первой половины XVIII вв. в советской историографии. В этой главе также говорится об укреплении великих держав на территории Азербайджанского Сефевидского государства и его падении. В конце диссертации даются общие итоги исследования.

**R.Y.Shiraliyev**

## The Foreign Policy of Safavid state in the Soviet Historiography

## SUMMARY

The presented thesis is dedicated to the investigation of the Foreign Policy of Azerbaijan Safavid state in the Soviet historiography. The thesis consists of an introduction, four chapters, conclusion and list of recommended literatures.

The topicality of thesis, studying level, aim and defining reasons, scientific novelty, also its theoretical and practical importance was discussed in an introduction.

The establishment, strengthening and territory expansion of Azerbaijan Safavid state during the reign of Shah Ismail I in the Soviet historiography was investigated in Chapter I. Besides, the foreign policy of Safavid state, relations with the Ottoman Empire and Western European states in the Soviet historiography was also analysed in this chapter.

The reign period of Shah Tahmasib II in the Soviet historiography was described in Chapter II. The relations between the Ottoman Empire, the Principality of Moscow, Western and Eastern states was comprehensivly investigated.

The Foreign Policy of Safavid state at the end of XVI century and in the beginning of XVII century in Soviet historiography was scrutinized. This chapter was also dedicated to relations with the Ottoman Empire, the Principality of Moscow and Western states during the reign of Muhammad Khudabendi, Shah Abbas I in the Soviet historiography.

The fourth chapter deals with the foreign policy of Azerbaijan Safavid state in the 1930's of XVII century and in the beginning of XVIII century in Soviet historiography. The consolidation policy of big states in the territory of Safavid state and the collapse of Azerbaijan Safavid state in the Soviet historiography was also investigated in this chapter.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə
TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**РАШАД ЯШАР оглы ШИРАЛИЕВ**

# ВНЕШНЯЯ ПОЛИТИКА СЕФЕВИДСКОГО ГОСУДАРСТВА В СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ

**Специальность 5507.01 – История международных отношений**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ— 2017**